Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Həyatı yazan yazdığını ekranlaşdıran yazıçı – Həsən Seyidbəyli

**Həsən Seyidbəylinin 100 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı 2020**

**Tərtibçilər:** **Nərgiz Məcidova**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Həyatı yazan yazdığını ekranlaşdıran yazıçı – Həsən Seyidbəyli:** Həsən Seyidbəylinn 100 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. M. Nərgiz; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2020. – 30 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Tərtibçidən

**“Mənim seçdiyim qəhrəmanlar tipaj deyil. Həmişə haqlarında düşündüyüm, yazdığım, hər gün həyatda təsadüf etdiyim və ekranda görmək istədiyim qəhrəmanlardır. Mən çox istərdim ki, onlar kinoda həyatlarını davam etdirsinlər, kiçiklər boya-başa çatsınlar, böyüklər yaşa dolsunlar - ekranda qocalsınlar”.**

Hər zaman Azərbaycan incəsənəti və ədəbiyyatında gözəl təsvir edilmiş və səlis qələmlərdən çıxmış nümunələrə çox ehtiyac duyub. Bu sıradan Həsən Seyidbəylinin qələmindən çıxmış əsərləri və yaratdığı filmləri daxil edə bilərik.

Bu baxımdan nasir, ssenarist, publisist kimi fəaliyyət göstərmiş Həsən Seyidbəyli ədəbiyyatımızın və kino sənətimizin inkişafında müstəsna xidmətləri olan XX əsr Azərbaycan sənətkarlarından biri hesab edilir. O. otuzillik yaradıcılıq yolu boyu yaratdığı əsərləri ilə ədəbiyyatımıza böyük töhfələr bəxş etmişdir. Onun müxtəlif mövzularda yazmış olduğu nəsr əsərləri bu gündə oxucular tərəfindən maraqla qarşılanır. Müasirlik duyğusunun gücü və ideya-məzmunu ilə seçilən ədibin  hekayələrində ilk baxışda konfliktsiz süjet xətti yer alır. Onun ekranlaşdırdığı filmlər Azərbaycan mədəniyyətində ideya-məzmun baxımından çox əhatəli hesab edilir. Ümumiyyətlə, Həsən Seyidbəylinin hekayə və povestlərində qurub-yaradan əmək adamlarının nəcib əməlləri təqdir olunur, müharibənin insanlara vurduğu maddi və mənəvi zərbənin real lövhələrlə, həyatı faktlarla təsvirinə geniş yer verilir. Təsadüfi deyil ki, 1977-ci ilin aprel ayında Riqada keçirilən X Ümumittifaq kinofestivalında Azərbaycan kinematoqrafiyasını təmsil edən “Xoşbəxtlik qayğıları” filmində rejissor məişətdə keçmişin qalıqlarına qarşı və yeni əxlaq normalarının təbliğat mövzusunun işlənməsinə görə münsiflər heyətinin Xüsusi diplomuna layiq görülmüşdür.

Real həyatın xarakterik bir parçasını böyük zövqlə ekrana gətirmək yüksək sənətkarlıq tələb edir. Həsən Seyidbəylidə yaratdığı ekran işlərində yüksək yaradıcılıq göstərən bir rejissordur.

Bu il anadan olmasının 100 ilik yubileyi tamam olan Həsən Seyidbəyli haqqında hazırladığımız bu metodik vəsait onun həm kino həmdə bədii yaradıcılığının təbliğatı üçün bir tövsiyə xarakterli vəsaitdir. Vəsaitdə bu münasibətlə keçirilməsi nəzərdə tutulan bir çox tədbir formaları verilmişdir. Vəsait mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün nəzərdə tutulmuşdur.

## Həyat və yaradıcılığı

Yaradıcılıq, hər şeydən əvvəl zəhmətdir, dərin maraqlı müşahidələr, yuxusuz gecələr, tez - tez təəssüflənmək, azca sevinmək deməkdir... Sonra yenə axtarışlar, gərgin, əzablı axtarışlardır əsl yaradıcılıq.

Həsən hələ uşaqikən Bakıya təzə-təzə gələn filmlər onun marağına səbəb olur. Balaca uşaq qəlbi ilə baxdığı bu filmləri, bu maraqlı, rəngarəng dünyanı başqa cür görür. Günlərini ekran qarşısında keçirən Həsən böyüyəndə də özünü orada təsəvvür edir. Və orta məktəbi bitirəndən sonra bu haqda qərarını da verdiyindən 1938-ci ildə öz arzusunun sorağıyla Leninqrada-indiki Sankt Peterburqa qədər gedib çıxır. Burada Kino Mühəndisləri İnstitutuna daxil olsa da, 1939-cu ildə Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutunun kinorejissorluq fakültəsində oxumağa başlayır. Lakin tələbəlik illəri onun müharibə dövrünə düşür. Bu zamanlar bir bulud kimi irəliləyən müharibə, onun ölkəsinidə öz ağuşuna aldığından onun oxuduğu institutu Almata şəhərinə köçürürlər. Bu qədər çətin günlərdən keçərək 1943-cü ildə kino sənəti üzrə təhsil alıb Bakıya qayıdan

Həsən Seyidbəyli kino sənəti üzrə təhsil alsa da, kino qıtlığı ilə vətənində üzləşir. Burada o ədəbiyyatla sənətə gəlir. Bədii yaradıcılığına hələ tələbəlik illərində yazdığı kiçik hekayə və novellaları ilə başlayır. 1944-cü illərdə müxtəlif qəzet və jurnallarda çap edilməklə adını yazıçı kimi tanıtmağa çalışır. Bu sarıdan onun ilk məsləhətçisi və oxucusu ömür-gün yoldaşı Süsən xanım olur. Yaradıcılığında "Kür sahillərində "," Telefonçu qız " povestləri, "Uzaq sahillərdə" romanı, "Cəbhədən cəbhəyə ", " İllər keçir ", " Çiçək " romanları, " Dəniz cəsurları sevir ", " Sən nə üçün yaşayırsan " pyesləri mühüm yer tutur. O bu əsərlərin çoxunu İmran Qasımovla birlikdə işləyir. Süsən xanımla təhsili müddətində tanış olub ailə həyatı qurur. 1951-ci ildə isə Moskva ali ssenaristlər kursunu bitirir.

İş həyatında qarşılaşdığı çətinliklərdən fərqli olaraq ailə həyatı uğurlu olan Həsən Seyidbəylinin həyat yoldaşı Süsən xanım Tibb İnstitutunu bitirir və həkim işləyir. Bu izdivacdan onların 1953-cü ildə Ziya, 1955-ci ildə Məryəm 1961-ci ildə Mehdi adlı üç övladları dünyaya gəlir. O, övladlarını da kamera önündə görmək istəsə də amma onlardan heç biri bu sənəti davam etdirmir. Onun hər üç övladı çəkdiyi " Bizim Cəbiş müəllim " filmində kamera önündə olurlar. Böyük oğlu Ziya Namiq, digər övladları Məryəm və Mehdi " Bizim Cəbiş müəllim filmində " Cəbiş müəllimin uşaqları rolunu oynayır. Məryəm bundan əvvəl "Telefonçu qız " filmində də Mehribanın uşaqlığını canlandırır. O, filmlərində uşaqlarını çəksə də onların nə aktyor, nə rejissor, olmalarını istəmir.

Həsən Seyidbəyli ictimai xadim kimi Azərbaycan kinosunun inkişafına da böyük təkan vermiş, 1963-1975-ci illərdə Azərbaycan Kinematoqrafçılar İttifaqı İdarə heyətinin I katibi, 1975-1980-ci illərdə sədri vəzifəsində çalışmışdır. Filmləri Ümumittifaq Kino festivallarında mükafat və diplomlara layiq

görülmüşdür. 1976-cı ildə Azərbaycan SSR Xalq artisti, 1977-ci ildə Münsiflər heyətinin fəxri fərmanı və diplomu "Qırmızı Əmək Bayrağı" ordeni "Şərəf Nişanı" ordeni ilə təltif edilmişdir. Xatirəsinə hörmət əlaməti olaraq adına paytaxt küçələrindən biri verilmiş, Film Fondunda şəxsi arxivi yaradılmışdır.

## Keçiriləcək tədbirlər

Yubilyarlarla bağlı kitabxanalarda keçirilən əyani təbliğat formalarından ən mükəmməli kitab sərgiləridir. Sərgilər həcminə, tərtibat xarakterinə, müddətinə görə bir-birindən fərqləndirilir. Bir və ya bir neçə lövhədə, stenddə qurulan sərgi, əsasən baxılmaq üçün təşkil olunduğundan, onun tərtibi qaydalarının böyük əhəmiyyəti vardır. Burada mətn və təsvir materialları bir-birini tamamlamalıdır. Nasir, yazıçı, kinorejissor, ssenarist, Həsən Seyidbəylinin 100 illik yubileyi ilə bağlı kitabxanada onun kitablarından, film materiallarından, dövri mətbuat materiallarından, haqqında yazılmış kitablardan bir sərgi hazırlaya bilərik. Sərgini qurmaq üçün ilk olaraq bu başlıqdan istifadə edə bilərik. *"Həsən Seyidbəylinin bədii nəsri", "Yazıçı, kinossenarist və rejissor ömrü",* "Milli kinonun yaradıcılarından biri", "İncilər yaradan rejissor", "Kino tarixinə imzasını qoymuş sənətkar", "Bənzərsiz ssenariləri ilə kino tariximizi zənginləşdirən sənətkar " və s. Təxmini müəllifin kitablarından hazırladığımız sərginin sxemini təqdim edirik:

**1 Başlıq:**
**2 Əsərləri**
**3 Haqqında yazılmış kitablar**
**4 Kino yaradıcılığı**

Qeyd edək ki, kitabxanalarda təşkil edilən sərgilərdə kitablarla yanaşı, müxtəlif qəzet və jurnal nömrələri əks etdirilə bilər ki, bu da həmin sərginin əhəmiyyətini xeyli artırar.

# Kitab sərgisi
























## Görkəmli şəxsiyyətlər Həsən Seyidbəyli haqqında

Həsən Seyidbəylinin bütün əsərləri, janrından və formasından asılı olmayaraq, günümüzün, zəmanəmizin ən aktual, ən müasir məsələləri ilə bağlıdır. Hərbi vətənpərvərlik, yaradıcı əmək, saf məhəbbət, gəncliyin tərbiyəsi, şəhər və kənd həyatı, sülh uğrunda mübarizə, neftçilərimizin surətləri, Həsənin maraqlandığı, meyl göstərdiyi və ustalıqla qələmə aldığı mövzulardır.

***

Filmdəki hadisələrin və surətlərin inkişafında quruluşçu rejissorun sənətkarlığı dərhal duyulur. Bu cəhət "Bizim Cəbiş müəllim" filmində özünü xüsusilə göstərir.

***Yusif Əzimzadə,***
*nasir, dramaturq*

"Uzaq sahillərdə" povesti bədii macərə əsərləri ruhunda yazılmışdır. Müəlliflər bəzən hadisələrin maraqlı və cəlbedici olmasına uyaraq, xarakterlərin dərindən açılmasına, psixoloji anlara az fikir vermişlər. Bunun nəticəsində də bəzi partizan surətləri arzu olunan dərəcədə tamamlanmamışdır. Buna baxmayaraq, " Uzaq sahillərdə " dəyərli bir əsərdir və ədəbiyyatımızda müsbət bir hadisədir.

***İlyas Əfəndiyev,***
*Xalq yazıçısı*

Həsən Seyidbəyli kinodan və ədəbiyyatdan nə istəyirdi? Mən cürət edib onu Vasili Şukşinlə eyni düşüncə dünyasının adamı hesab edərdim. Şuşkin rus mujikinin, Həsən Seyidbəyli Azərbaycan qadının, ələlxüsus gənc qızların, azərbaycanlı ailəsinin xoşbəxtliyi problemi ilə məşğul olurdu.

***Məmməd Adilov,***
*filologiya elmləri doktoru*

Həsən Seyidbəyli mənalı bir ömür yaşamışdı. O, qayğılı ömründə həm qələmlə, həm də sözlə xalqa xidmət etməyə çalışmışdır. Qələm onun silahı olub cəmiyyətdəki nöqsanları təmizləməyə, sözsə tribunalardan danışmağa lazımı olmuşdur.

***Cabir Novruz,***
*Xalq şairi*

Rejissorun gələcək planlarında "Nizami " və "Babək" kimi filmlər dururdu. Mən hər iki ssenarini oxumuşdum. Hətta "Babək" in sınaq çəkilişlərindən də çıxmışdım. O vaxt ona deyirdilər ki, nəyə görə yenə də Rasim Balayevi! Bir sözlə, uğurla başlanan fəaliyyətimizin ömrünün uzun olacağı göz qabağında idi.

**Rasim Balayev,**
*aktyor*

Bundan başqa rejissor haqqında dərc edilmiş nəşrlərdən ibarət kitabxana sərgiləri, elektron formada kitabxanaların veb saytında kompleks kitabxana sərgiləri, müxtəlif xüsusiyyətli fonoqramların köməyi ilə tərtib olunmuş "danışan" kitab sərgiləri, video filmlər təqdim etməklə sərgilər, baxışlar, elektron sərgi günləri və s. təşkil etmək olar.

Həsən Seyidbəyli yaradıcılığından danışarkən nəinki onun əsrlərindən, çəkdiyi filmlərdən də söz açmasaq olmaz. Bu filmlərin siyahısında “ Bizim Cəbiş müəllim”, “ Böyük yol ”, “ Xoşbəxtlik qayğıları ”, “ Qaraca qız ”, “ Cazibə qüvvəsi ”, “ Kinonu sevən adam Həsən Seyidbəyli ”, “Qızmar günəş altında”, “ Möcüzələr adası ”, “ O qızı tapın ”, “ Telefonçu qız ” filmlərinin adlarını çəkə bilərik. Bir kitabxana olaraq yeniyetmələrlə işlədiyimiz üçün onların zövqünün formalaşmasında, vətənə, anaya sevgi hissinin, əsl bir vətəndaş olmaq hisslərinin aşılanmasına çalışırıq. Bunun üçün müxtəlif tədbirlər həyata keçirilir. Həsən Seyidbəylinin yubileyi ərəfəsində də onun kinoda ən böyük işlərindən biri olan “ Nəsimi “ filmindən danışa bilərik. Bu filmi çəkmək onun üçün böyük bir iş idi. Çünki film Azərbaycan xalqının görkəmli şair və filosofu, hürufi təriqətinin nəğməkarı, insan zəkasının, hisslərinin gözəlliyinin tərənnümçüsü Nəsimiyə həsr edilmişdir. Film böyük Azərbaycan şairinin yaradıcılığının kitabxanada təbliği üçün də gözəl bir materialdır. Yuxarı sinif şagirdləri ilə filmə baxış keçirə bilərik. Bu çoxsaylı oxucuların həm də film ilə tanış olmasına səbəb olar. Bu filmdə aktyorların seçimi, onların rollarını necə oynaması və b. fikirlərini öyrənmək üçün filmə baxışdan sonra onlayn inşa müsabiqəsi və ya sual-cavab təşkil edə bilərik. Filmi çoxsaylı oxucuların onlayn izlənməsi də maraqlı olar. İnşa müsabiqəsinin keçirilməsi haqqında elan ilk əvvəl onlayn şəkildə kitabxananın sosial şəbəkələrində, saytında yerləşdirilir. Yazılmış inşalar təyin edilmiş vaxta qədər iştirakçılar tərəfindən kitabxananın email adresinə (ushaqkitabxanasi@gmail.com) göndərilir. Və təyin edilmiş münsiflər tərəfindən sonda maraqlı inşa sahibi mükafatlandırılır. Filmə baxmış iştirakçılar ilə filmin rejissor işinə aid sualları ilə sual-cavab da keçirə bilərik. Bu oxucuları Həsən Seyidbəylinin

rejissor işi haqqında tanış olmasına kömək edər. Bu işi onlayn şəkildə də təşkil edə bilərik.

1. "Nəsimi" filmini Həsən Seyidbəyli hansı roman əsasında çəkmişdir?

2. Həsən Seyidbəylinin İsa Hüseynovun "Məşhər" romanı əsasında çəkdiyi film hansıdır?
   ☺ Nəsimi
3. Nəsimi kimdir?

4. Filmdə Nəsimi rolunun ifaçısı hansı aktyordur?
   ☺ Rasim Balayev

5. Həsən Seyidbəylinin Nəsimi obrazına seçdiyi aktyor Rasim Balayevin rolunu bəyənirsinizmi?

6. Nəsimi filminin rejissor tərəfindən aktyor seçimini necə qiymətləndirirsiniz?

7. Filmdə ən çox xoşunuza gələn səhnə hansıdır?

8. Nə üçün filmdə Nəsiminin dərisi soyulur?

9. Nəsimininin son sözlərini  xatırlıyırsınızmı?

## ***Böyük Nəsimiyə möhtəşəm kino abidəsi***

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə isə ötən ilin Azərbaycanda "Nəsimi ili" kimi qeyd olunduğunu bilirik. Bu çərçivədə ölkəmizdə böyük şairin həyat və yaradıcılığına həsr olunan çox sayda və fərqli formatlarda tədbirlər təşkil olunmuşdur.



Görkəmli Azərbaycan rejissoru və ssenaristi Həsən Seyidbəyli yaradıcılığının dünya kinematoqrafiyasına verdiyi bu böyük töhfə də Nəsiminin 650 illik yubileyi münasibətilə 2019-cu ildə Balans Studiyası tərəfindən yenilənmiş və yeni versiyası işlənmişdir.

H.Seyidbəyli yaradıcılığının zirvəsini təşkil edən "Nəsimi" bədii filmi həm də Azərbaycan kinematoqrafiyasında böyük hadisəyə çevrildi. Tamaşaçılar Nəsimi dünyasına məhz rejissorun sehrli ekran prizmasından nəzər saldılar. O, böyük şairi Azərbaycan tamaşaçılarına yeni ampluada təqdim edib tanıtmaqla kinematoqrafiyada bu ölməz sənətkara möhtəşəm abidə ucaltdı.

"Nəsimi" tarixi-bioqrafik filmini rejissor H.Seyidbəyli yazıçı İ.Hüseynovun ssenarisi əsasında çəkib. İki mahir sənətkarın birgə əməyi və yaradıcı səyi nəticəsində meydana gələn ekran əsəri 1974-cü ildə Bakıda keçirilən VII Ümumittifaq kinofestivalında ən yaxşı tarixi filmə görə mükafat aldı.

Rejissor "Nəsimi" filmində baş rolu həvalə etdiyi gənc aktyor Rasim Balayevdə nəinki özünə inam yaratdı, həm də onu Nəsiminin fəlsəfi düşüncələrinin dərinliyinə baş vurmağa vadar etdi. Nəticədə dəqiq aktyor oyunu öz gözəl bəhrəsini verdi, ekranda şair və filosof, hürufi təriqətinin ideoloqu, insan zəkasının və əxlaq gözəlliyinin tərənnümçüsü İmadəddin

Nəsiminin dolğun obrazı öz həllini tapdı. R.Balayev ən yaxşı kişi rolunun ifasına görə VII Ümumittifaq kinofestivalının laureatı oldu. Nəsimi obrazı ilə parlayan aktyorun üzünə böyük kinonun qapıları taybatay açıldı. Bu, H.Seyidbəylinin böyük xidməti idi.

Azərbaycan kinosuda öz filmləri ilə həmişə cəmiyyətimizin inkişafında xüsusi rol oynamışdır. Nəsimi filmi ilə yanaşı " Uzaq sahillərdə filminə " baxış və film və film haqqında müzakirə keçirə bilərik. Həsən Seyidbəyli və İmran Qasımovun eyniadlı povesti əsasında çəkilmiş kinolent Azərbaycan xalqının şanlı qəhrəmanı, Sovet İttifaqı qəhrəmanı Mehdi Hüseyinzadənin ikinci dünya müharibəsi illərində faşist işğalçıları ilə apardığı müharibədən bəhs edir. Kitabxanada xalqımızın qəhrəmanlığının, milli düşüncəsinin düzgün təbliği məsələləri önəmli yer tutur. Bu film Azərbaycan kinosunda çəkilmiş bu yöndən düzgün örnəkdir.

***Biblioqrafik icmal:***

Biblioqrafik icmallar kitabxanalarda geniş yayılmış şifahi təbliğat üsullarından biridir. Onları keçirməkdə məqsəd oxuculara kitablar haqqında məlumat verməkdir. İcmallar kitabxanada oxucuları kitablarla tanış edir, onlara kitabı oxumasalarda məlumat almağa kömək edir. Kitabxanada tövsiyə xarakterli Həsən Seyidbəylinin "Cəbhədən cəbhəyə", "Uzaq sahillərdə", "Xəzər" və b. kitablarının icmalını keçiririk. Belə icmallar daha maraqlı olur və oxucularda mütaliəyə daha çox həvəs yaradır.

Seyidbəyli H.  Cəbhədən cəbhəyə [roman]. – B: Hədəf, 2013

**Müəllifə aid guşə**

Bilirik ki, guşələr sərgiyə nisbətən daha geniş və əhatəli olur.

Həsən Seyidbəyli yaradıcılığını əks etirən guşədə əlavə olaraq müəllif haqqında hazırlanmış kartoteka, qəzet, jurnal materialları, tövsiyə ədəbiyyat siyahıları, mövzuya uyğun bir sıra sənədlər və şəkillər də öz əksini tapa bilər. Burada əsas məqsəd oxucuya axtardığı materialları asanlıqla tapmaqda kömək etməkdən ibarətdir. Oxucular arasında kitaba məhəbbət oyatmaq, kitabı onlara sevdirmək, kitabın nüfuzunu qaldırmaq üçün kütləvi tədbirin bu kimi müxtəlif formalarından istifadə etmək vacibdir.

***Kitab müzakirəsi:***
***Həsən Seyidbəyli yaradıcılığı haqqında ilk tədqiqat əsəri***

Kitab müzakirələri kitabxanada oxucu fəallığının artmasına, bədi-estetik zövqlərin formalaşmasına, kitab üzərində müstəqil işləmək, oxuduqları çap əsərləri haqqında sərbəst fikir yürütmə bacarığının yaranmasına təsir göstərir. Yazıçı və şairlərlə oxucular arasında ünsiyyətin yaradılmasında, bədii ədəbiyyata meylin yaranmasında belə müzakirələr böyük əhəmiyyət kəsb edir. Azərbaycan ədəbiyyatı tarixində nasir, ssenarist, kinorejissor, ictimai xadim kimi tanınan kinorejissor çoxşaxəli yaradıcılıq fəaliyyətində həmişə xalqın, ədəbiyyatın milli təəssübkeşi olub. Ziyalı-vətəndaş mövqeyi, cəmiyyətdə müşahidə etdiyi neqativ halları aradan qaldırmaq istəyi yazıçının bədii əsərlərində dolğunluğu ilə öz əksini tapıb. Azərbaycan ədəbiyyatı və incəsənəti tarixində ikinci ömrünü yaşayan Həsən Seyidbəyli yaradıcılığı filologiya elmləri üzrə fəlsəfə dokturu, Azərbaycan Müəllimlər İnstitutunun əməkdaşı Baba Babayevin *"Həsən Seyidbəylinin bədii nəsri"* monoqrafiyasında genişliyi ilə xüsusi yer alır. Bu monoqrafiyanı tələbələr ilə müzakirəsini keçirə bilərik. Hansı ki, onlar Həsən Seyidbəyli yaradıcılığı ilə məşğul olacaq.

**Kitabxanaçı:**

Azərbaycan ədəbiyyatının və kino yaradıcılığının inkişafında müstəsna xidmətləri olan Həsən Seyidbəylinin ədəbi-bədii nəsrindən bəhs edən kitabın redaktoru akademik Bəkir Nəbiyevdir. Dövrün ədəbi prosesi və aktual problemləri baxımından təhlilə cəlb olunan bu kitab gənc alim və tədqiqatçılar üçün çox faydalıdır.




Bizimdə oxuduğumuz kitablar bəzən həyatımızı dəyişir bəzən xarakterimizə çox təsir edir. Orhan Pamukun "Yeni həyat" romanı da məhz bu cümlə ilə başlayır. "Bir gün bir kitab oxudum və həyatım dəyişdi". Bu monaqrafiyadada istedadlı nasir Həsən Seyidbəyli yaradıcılığının təhlilinə əsasən əhatəli məlumat alacağıq. Kitabla tanış olarkən müəllifin yaradıcılığına baxarkən görəcəyik ki, həyatımızı təkcə bir kitab yox, ani bir hadisə, gözlənilməz bir dialoq da dəyişə bilər. Nasir, kinorejissor, ssenarist, Həsən Seyidbəylidə məhz bu sənətkarlardan biridir. Bu kitab sənətkarın yaradıcılığına həsr edilmiş ilk elmi araşdırma olduğundan kitabda müəllif məsələyə çox ciddi yanaşmışdır. Tədqiqatçı yaradıcı insanlara xitabən haqlı olaraq bildirir ki, bu cür sənətkar haqqında az yazılıb. Ona görə də kitabda müəllif çalışıb ki, yazıçının bütün yaradıcılığını önə çəksin, hərtərəfli təhlil verə bilsin. H.Seyidbəyli gözəl hekayələr və novellalar ustasıdır. Baba müəllimin fikrincə, Həsən Seyidbəylinin süjet qurmaq, yaddaqalan obraz yaratmaq, söz demək məharəti çox güclü olmuşdur. Onun fikrincə, bu ədibin *"İki müavin", "Qığılcımlar", "Qiymətli damcılar", "Vəfalı it və oğru pişik"* hekayələrində bu cəhətə xüsusi diqqət yetirilir. Müəllifə görə H.Seyidbəyli hekayələrinin mövzusu beynəlmiləlçilik ruhunda olsa da, obrazlar milli xarakterlidir.

Müəllifin fikrincə, H.Seyidbəylinin hekayələri ilk baxışda konfliktsiz süjet xətti təsiri bağışlasa da, güclü dinamizmə malikdir.

Qeyd etdiyimiz kimi Həsən Seyidbəyli filmlərinin çoxunu öz əsərləri əsasında ekranlaşdırmışdır. Belə filmlərdən *"Qızmar günəş altında", " Uzaq sahillərdə " filmlərinin ssenari müəllifi, " Telefonçu qız ", " Kimi daha çox sevirik", " Möcüzələr adası ", "Sən niyə susursan ", " O qızı tapın ", " Xoşbəxtlik qayğıları "* filmlərinin ssenari müəllifi olmaqla yanaşı həmdə rejissoru olmuşdur. Onun həyatı və ədəbi-ictimai fəaliyyəti Azərbaycanla sıx bağlı olub hər zaman xalqın arzu-istəklərini, onun yaşam tərzini önə çəkmişdir. Qəhrəmanlarını həmişə xoşbəxt insanlar görüb onların arasında həkim, neftçi, kolxozçu, telefonçu, qazmaçı, bir sözlə, adi vətəndaşları obrazlarında vermişdir. Yaratdığı əsərləri ilə Azərbaycan ədəbiyyatının parlaq simalardan biri olub ədəbiyyat tariximizdə həm nasir, həm ssenarist, həm kinorejissor, həm də ictimai xadim kimi yüksək yerlərdən birini tutmuşdur.

Ədəbiyyat o zaman öz zamanından uca dayanır ki, milli məfkurəyə xidmət edir, yaradıcı şəxs özünü unudur, vətəndaşına xidmət edir. Bu mənada onun yaradıcılığı çoxşaxəli olmuşdur. Yazıçı həm də kinossenarist və rejissor olaraq Azərbaycan ədəbiyyatı və incəsənəti üçün çalışmışdır. Həsən Seyidbəyli ikinci ömür yaşayır. Qədirbilən ziyalı-alim, ədəbiyyatşünas, filologiya elmləri üzrə fəlsəfə dokturu Baba Babayev kimi insanların qələmində. Müəllif bu görkəmli sənətkarın yaradıcılığına bütövlükdə ilk dəfə qiymət vermək zərurəti qarşısındadır. Sənətkara ilk dəfə qiymət vermək hər cəhətdən çətindir. Çətindir o mənada ki, ilk təşəbbüs sənindir. Və sənin verdiyin qiymət gərək obyektiv olsun, qınağa çevrilməsin. Ona görə də bir çətinlik də Həsən Seyidbəylinin Baba Babayev qələmində yaşamasına təhlil verməkdir. Müəllif çox haqlı irad

tutur ki, bu cür sənətkar haqqında az yazılmışdır. Ona görə də müəllif çalışır ki, yazıçının bütün yaradıcılığına qiymət versin. İlk növbədə Həsən Seyidbəyli gözəl hekayələr və novellalar ustasıdır. B. Babayev də onun yaradıcılığını janrlar üzrə təhlil edərkən hekayə və novellaları önə çəkir. Hekayə həyat həqiqətlərini göstərmək üçün ən çevik ədəbi yoldur. Bu ədəbi yola keçən povest və romanı öz yaradıcılığına daxil edə bilir. Süjet qurmaq məharəti hekayələrindən göründüyü kimi pis alınmır. Onun süjet, obraz yaratma, söz demək imkanları hekayələrində az və ya çox dərəcədə görünür. Tədqiqatçı onun hekayələrinin bu cəhətinə də diqqət yetirir, “İki müavin”, “Qığılcımlar”, “Qiymətli damcılar”, “Vəfalı it və oğru pişik” hekayələrində sənətkarın uğurunu və uğursuzluğunu tənqidçi gözü ilə oxucunun nəzərinə çatdırır. B.Babayevin təhlili bir tərəfli deyil. Həsən Seyidbəylinin hekayələrinin mövzusu beynəlmiləlçilik ruhunda olsa da, obrazlar milli xarakterlidir. Bu cəhəti B.Babayev çox düzgün olaraq hiss etmiş, millilikdən doğan bəşəriliyə ədəbiyyat nöqteyi nəzərindən yanaşmışdır. H.Seyidbəylinin hekayələrinə nəzər salsaq ilk baxışda konfliktsiz süjet xətti təsiri bağışlayır. Lakin bu o demək deyil ki, hekayələr dinamizmindən məhrumdur. Hekayələrindəki daxili ziddiyyətlər barışmaz həddə deyil, bu ziddiyyətlər öz məcrasında həll oluna bilir. Hekayələrin bu yönünə nəzər yetirən tədqiqatçı konflikt məsələsinə toxunarkən bu problemin onun povestləri üçün keçərli olduğunu yazır. Xüsusilə “Kənd həkimi” povestində konflikt institutu bitirən gənclə onun qarşılaşdığı maneələr arasındadır. Bu povest dərin oxucu rəğbətini qazanmışdır. Oxuculardan fərqli olaraq alim bu əsərin nöqsanlarını görə bilir. Povestin qəhrəmanı gənc həkim Aydın Zeynalovdur. Yazıçının tanıtdığı kimi, bu obraz həm əsl qızdırmaya, həm də cəmiyyətin mənəvi xəstəliyinə qarşı mübarizə aparır. Göründüyü kimi, əsərdəki konflikt həll oluna

bilir. Həsən Seyidbəylinin həyatı və ədəbi-ictimai fəaliyyəti Azərbaycanla sıx bağlıdır. O, nədən yazırsa yazsın, xalqın arzu-istəklərini, onun yaşam tərzini həmişə önə çəkir. Onun qəhrəmanları xoşbəxt insanlardır. Bu obrazlar qalereyasında həkim, neftçi, kolxozçu, telefonçu, qazmaçı daha çoxdur. Bizi bu obrazlardan o qədər də böyük tarix ayırmır. B.Babayev H.Seyidbəyli realizmini günün obyektiv reallığından doğduğunu qanunauyğun şəkildə görür. XX əsər realizmi özünü Azərbaycan ədəbiyyatında da göstərmişdir. Tənqidçi öz fikrini belə formula edir ki, H.Seyidbəylinin ilk hekayələri və povestləri müasirliyi duymaq, dərk etmək, ondan sənətkarcasına istifadə etmək hesabına meydana çıxmışdır. Müəllif yazıçı kimdir? Sualına cavab axtarır, belə bir cavab da diqqətdən yayınmır: “Konfliktlər fonunda çalışan yazıçıdır”. Təbii ki, buna uyğun olaraq “oxucu kimdir?” sualı da fikrimizə gəlir. Qəhrəmanın həyatını, taleyini yaşaya bilən oxucudur. Nə qədər poetik səslənsə də, H.Seyidbəylinin qəhrəmanı oxucunun zövqünü oxşaya bilir. H.Seyidbəylinin əsərlərindəki dramatizm oxucunu gərginlikdə saxlaya bilir. Bu yerdə B.Babayev “Telefonçu qız” povestindəki dramatizmi misal göstərir. Bu əsərdəki dramatizm daxili konfliktlə müşayiət olunur. Həm də Seyidbəylinin istedadı kəskin dramatizm və ziddiyyətsiz konfliktlər yaratmaqda özünü göstərir. “Mən ki gözəl deyildim”, “Söyüdlü arx” əsərlərindəki yazıçılıq məharəti də obrazlar arasındakı mübarizənin yaratdığı situasiyalardadır. Yazıçılar bilə-bilə öz qəhrəmanlarını çətin vəziyyətlərə salırlar. “Telefonçu qız” povestində də yazıçını tənqidçi alim gözəl duymuş, bu surətlərin başqa surətlərlə müqayisədə əsl dramatik səciyyəsini açıb göstərmişdir. Onu da qeyd etmək olar ki, “Telefonçu qız”ın (Mehribanın) xarakterik cizgilərini bu səviyyədə təqdim etmək əsl tənqidçinin işidir.

Baba Babayev Həsən Seyidbəylinin ədəbi-bədii görüşlərində xüsusi seçilən lirik-psixoloji üsluba da öz baxışlarını açıqlayır. Bu üslubun kök saldığı "Çiçək", "Telefonçu qız", "İllər keçir", "Tərsanə", "Cəbhədən-cəbhəyə" əsərlərinə əsasən, Həsən Seyidbəylinin psixoloji durum yaratmaq məharəti haqqında səviyyəli oxucudan tutmuş mütəxəssis alimə qədər hamıya bəllidir. Ancaq professional səviyyədə nəsrdə lirizmdən, onun qabarıq keyfiyyətlərindən layiqincə danışmaq həm də yazıçıya olan hörmətdən irəli gəlir. Tənqidçinin Çiçək obrazını məhz belə bir səviyyədən görüb müşahidə etməsi qərəzsiz mütaliənin nəticəsidir. Çiçək kimdir? Sual ətrafında çoxlu mübahisələr etmək olar. Baba Babayev də Çiçəyə olan münasbətində onun həm mənfi xüsusiyyətlərini, həm də müsbət keyfiyyətlərini görüb qiymətləndirir. O, kənd həyatını yaxşı bildiyindən povestindəki kəndlə bağlı yazıçının qeydlərindəki səriştəsizliyi yerində tuta bilmişdir. Ədəbiyyat qarşısında duran məsələlərdən biri yazıçı və müasirlik problemidir. Köhnəlməyən mövzular ədəbiyyatda həmişə yaxşı qarşılanmışdır. Bu məsələ həm də bəşəri mahiyyət kəsb edir. Necə əsər yaratmaq lazımdır ki, indi də yaxşı oxunsun, gələcəkdə də yaxşı qarşılansın. Bu sahədə Azərbaycan ədəbiyyatında layiqli sənətkarlar özlərini təsdiq etmişlər. Ancaq milli zəminə əsaslanan bədii əsər yaratmaq isə Azərbaycan yazıçısının işidir. Bəs milli Azərbaycan yazıçısı ifadəsini kimə aid etmək olar? Bu suala cavab tapmaq tənqidçinin işidir. B. Babayevin bu məsələyə münasibəti aşağıdakı cümlələrdə daha aydın görsənir. "H.Seyidbəylinin yaradıcılığı müasirlik hissinin qabarıqlığı və ideya-məndəricəsinin əhatəliliyi ilə diqqəti cəlb edir. Yazıçı yaradıcılığına müasirlik kimi yüksək estetik prinsipləri baxımından yanaşdığı üçün oxucusunu yormur. Yaratdığı obrazların daxili aləminə nüfuz etməsi əsərlərinin ideya-sənətkarlıq xüsusiyyətlərini və həll etmək istədiyi problem

dairəsini düzgün müəyyənləşdirir”. Bu fikirlərin struktur təhlilini verməklə müasirliyə olan münasibəti aydınlaşdırmış olarıq. - Hansı yazıçı müasirdir? – Yaratdığı obrazların daxili aləminə nüfuz etməyi bacaran yazıçı. - Hansı mövzu müasirdir? – Həll etmək istədiyi problemin dairəsini düzgün müəyyənləşdirən mövzu. Bu iki hökmün nəticəsi kimi aşağıdakı cümlə fikrimizi tam əsaslandıra bilir. “Tərsanə” romanını oxuduqdan sonra müəyyən etmək çətin deyil ki, o fəhlə mövzusu ilə qəlbən, ürəkdən bağlı olan bir sənətkar olmuşdur”. Buradan təbii bir sual yaranır: “Tərsanə” romanı müasirdirmi? Bu sualın B.Babayevin düşüncəsində cavabı belədir: “Uzaq sahillərdə”, “Telefonçu qız”, “İllər keçir”, “Cəbhədəncəbhəyə”, “Çiçək”, “Tərsanə” roman-povestlərinin yaranma tarixindən 50 ildən çox vaxt keçdiyinə baxmayaraq, aktuallığını və estetik dəyərini bu gün də qoruyub saxlayan, hətta bu gün də insanları düşündürən, özünə cəlb edən yaradıcılıq nümunələridir”.

Müasirlik həm də insanı yaxın tarixi keçmişimizə bağlamalıdır. Yəni oxucu yaxın və ya uzaq keçmişdə yaşamağı da mütaliə zamanı bacarmalıdır. Bu isə yazıçının sənətkarlığından birbaşa asılıdır. Hətta oxucunu keçmişə aparıb gətirə bilərsə, əsər onda müasirliyə daha yaxşı xidmət edə bilər. B.Babayevin əsərdən verdiyi retrospektiv çözüm yaddaşda oxucunu 70-ci illərə qaytara bilir. “Bu otağın mebeli açıq-qəhvəyi rəngdə idi. Artıq hər şey yerbəyer olmuşdursa da, burada 18-19 yaşlı oğlan uşağının yaşadığı o dəqiqə hiss olunurdu. Stulların söykənəcəyində, çarpayının üstündə idman paltarı, cürbəcür qalstuklar, əzilmiş cib yaylığı, “Vokruq sveta” və “Texnika molodyoji”, yazı stolunun siyirtməsində sınmış pərgar, rəsmxətt ləvazimatı, jurnallardan kəsilib şifonerin içəri üzünə yapışdırılmış şəkillər, çiyinlərinin, qollarının və qılçalarının əzələləri əfsanəvi bir tərzdə qabarmış idmançıdır. “Yeniyetmələr” filimindən ərəb aktrisası Maqdanın şəkli,

Andrey Bolkonski rolunda Vyaçeslav Tixonovun yorğun, ağıllı sifəti, aktrisa Svetliçnayanın rəngini itirmiş iri, süzgün gözləri. Bridjit Bardonun açıq dodaqları və yuxarıda ayrıca bir guşədə tahir Salahovun çəkdiyi Qara Qarayevin şəkli". Bu və ya digər təsvirlər bizə yaşadığımız post-sovet məkanındakı mənzərəni xatırladır. Qısaca belə demək olar ki, "Tərsanə" müasir romandır. Bizi "Tərsanə"dəki hadisələrdən olsa-olsa 20-30 il ayırır. Bunu nəzərə alıb demək olar ki, "Tərsanə" romanının ikinci hissəsi bizim zamanımızda həyatımıza qayıdacaq. B.Babayev H.Seyidbəylinin heç bir əsərinə gözgörəlik etmir. O, yazıçının povest və romanlarını həm tərifləyir, həm də tənqid etməkdən çəkinmir. Bunu çap olunmamış "Tərsanə"nin ikinci hissəsinə də aid etmək olar. O, əsərdə obrazların taleyindən narahatdır. Lalənin, Tutunun, Ələsgərin sevgi macəraları, Əyyub Qəriblinin gəmi təmiri zavodunda rəhbərliyindəki perspektivlər dumanlı qalır.

**Filmoqrafiya**

Həsən Seyidbəylinin xatirə lövhəsi (Bakı)
Bakıdan Göy-gölədək (film, 1947)
Bizim Cəbiş müəllim (film, 1969)
Böyük yol (film, 1949)
Cazibə qüvvəsi (film, 1964)(film, kinoalmanax)
Çətirimiz buludlardır (film, 1976)
Doğma xalqıma (film, 1954)
Əyri yolla qazanc (film, 1960)
Xoşbəxtlik qayğıları (film, 1976)
İmadəddin Nəsimi (1973)
Kamillik (film, 1979)
Kinorejissor Həsən Seyidbəyli (film, 2002)
Kinonu sevən adam. Həsən Seyidbəyli (film, 2015)
Qaraca qız (film, 1966)(film, kinoalmanax)

Qızmar günəş altında (film, 1957)
Quba bağlarında və Tərtərçay vadisində (film, 1949)
Möcüzələr adası (film, 1963)
Nəsimi (film, 1973)
O qızı tapın (film, 1970)
Onun bəlalı sevgisi (film, 1980)
Ömrün səhifələri (film, 1974)
Sağ ol, dostum (film, 1980)
Sən niyə susursan? (film, 1966)
Sovet Azərbaycanı (film, 1972)
Telefonçu qız (film, 1962)
Toral və Zəri (film, 1979)
Uzaq sahillərdə (film, 1958)
Şosedə hadisə (film, 1960)

***“Kino tarixinə imzasını qoymuş sənətkar”***

Kitabxanada istedadlı sənətkar Həsən Seyidbəylinin 100 illik yubileyi münasibətilə keçirilməsi nəzərdə tutulan tədbirlərdən biridə ədəbi-bədii gecədir. Tədbirin məqsədi Həsən Seyidbəyli sevənlər ilə rejissorun yaradıcılığının tədqiqatçılarını bir araya gətirməkdir. ***“Kino tarixinə imzasını qoymuş sənətkar”*** başlıqlı ədəbi-bədii gecənin təşkili nəzərdə tutulur. İlk olaraq gecənin təşkili üçün səhnə qurulur. Ədibin portreti vurulur. Görüşdə hazırlanmış onun yaradıcılığını əks etdirən video çarxı izləmək üçün monitor qurulur.
**I aparıcı:** Salam xoş gördük əziz iştirakçılar.
**II aparıcı:** Bu gün bura sizinlə işıqlı bir yaradıcılığa nəzər salmaq üçün yığışmışıq.
**I aparıcı:** Hansı ki, ədəbiyyatçılar deyirlər ki, hansı yazıçı ölümündən sonra oxunur, deməli, o, ölməyib. Həqiqətən bu belədir. Həsən Seyidbəyli də o xoşbəxt sənətkarlardandır ki,

həm oxunur, həm də maraqla tamaşa olunur. Yazıçı, kinorejissor, kinodramaturq Həsən Seyidbəylinin *"Çətin sənət"* adlı xatirəsini oxuyarkən düşünürsən ki, həqiqətən də sənətkarlar heç vaxt adiləşmirlər, kiçilmirlər, bizim təsəvvürümüzdə daha da böyüyürlər. Həsən Seyidbəyli kimi.

**II aparıcı:** Ona görə Həsən Seyidbəyli daha böyük sənətkar sayılır ki, onun ömür yolunda ümumi üç əsas istiqamət ortaya çıxır. Birincisi, o, tanınmış yazıçı, dramaturq, ssenarist, publisist kimi. İkincisi, o, Azərbaycanın ən istedadlı kinorejissorlarından biri kimi. Üçüncüsü isə, ictimai xadim kimi nəinki respublikamızda, eləcə də, keçmiş SSRİ məkanında böyük hörmət sahibi idi.

**I aparıcı:** 1963-1975-ci illərdə Azərbaycan Kinematoqrafçılar İttifaqının I katibi, 1975-1980-ci illərdə sədri işləyib, milli kinematoqrafiyamızın tərəqqisi naminə əvəzsiz xidmətlər göstərən Həsən Seyidbəyli 1920-ci ildə Bakıda anadan olmuşdur. 1938-1939-cu illərdə Leninqrad Kino Mühəndisləri İnstitutunun səs operatoru fakültəsində bir il oxumuş, 1943-cü ildə Moskvada ÜDKİ-nin rejissorluq fakültəsini, daha sonra həmin institutun nəzdində ali ssenari kurslarını bitirmişdi. Lakin 1943-cü ildə quruluşçu-rejissor diplomunu alandan sonra işlə təmin oluna bilməmişdir. Çünki müharibə illəri və müharibədən sonrakı dövr üçün xarakterik olan film qıtlığı bu gənc sənətkardan da yan keçmir. Ona görə də Həsən Seyidbəyli ədəbi işlə məşğul olmağa yönəlir. Məqalələr, ssenarilər, povestlər yazmağa başlayır.

**II aparıcı:** İstedadlı nəsr ustasının qələmindən çıxan "Kənd həkimi", "Bizim Astarada", "Telefonçu qız" povestləri, "Cəbhədən cəbhəyə", "İllər keçir", "Uzaq sahillərdə" (son ikisi İmran Qasımovla birgə), "Tərsanə", "Çiçək" romanları, "Dəniz cəsurları sevir", "Sən nə üçün yaşayırsan?" (hər ikisi İ.Qasımovla birgə) pyesləri, "Yuqoslaviya xatirələri", "İyirmi

gün Amerikada", "On beş gün Yaponiyada", "Gördüyüm yerlər" yol qeydləri, publisistik məqalələri, oçerkləri nəinki öz ölkəsində sevilir bir çox xarici dillərə tərcümə edilir.

**I aparıcı:** Ədəbi yaradıcılığı ilə yanaşı kino tariximizin bir sıra ən parlaq səhifələri də H.Seyidbəylinin adı ilə bağlı hesab edilir. Onun ssenariləri əsasında "Doğma xalqımıza" bədii-sənədli, "Qızmar günəş altında", "Uzaq sahillərdə" (İ.Qasımovla birgə) bədii, "Əyri yolla qazanc", "Yolda əhvalat" (hər ikisi İ.Qasımovla birgə) qısamatrejlı bədii, "Toral və Zəri", "Sağ ol, dostum" animasiya, "Sovet Azərbaycanı" (I seriya, N.Yarovaya ilə birgə, Az.TV) televiziya, "Kamillik" sənədli filmləri yaradılıb. O həmçinin "Ömrün səhifələri" kinoalmanaxında müəllifi, "Onun bəlalı sevgisi" filminin bədii rəhbəri olub. Yazıçının "Xidmət lifti" hekayəsinin motivləri əsasında "Liftçi qız" novellası çəkilib. O, 8 tammetrajlı bədii filmə quruluş verib. Bunlardan 6-nın həm də ssenari müəllifi özü olub.

1962-ci ildə eyni adlı povesti əsasında çəkdiyi ilk bədii filmi olan *" Telefonçu qız "* Azərbaycan kino sənətində mühüm mərhələ olub. Bu film istər qayəsinə, istərsə də üslubuna görə onun sonrakı yaradıcılıq axtarışlarının əhatə dairəsinin genişliyini müəyyən edib.

**I aparıcı:** Bundan sonra H.Seyidbəyli Xəzər dənizində salınmış əfsanəvi dəniz şəhəri olan Neft Daşlarına həsr olunmuş "Möcüzələr adası" filminə quruluş verib. Filmdə ömrünün böyük hissəsini burada keçirən qocaman neftçilər, Neft Daşlarına işləməyə gələn gənclər, onların xarakterləri, qarşılıqlı insani münasibətləri haqqında söhbət gedir.

*(Filmdən parça monitorda göstərilir musiqi səslənir).*

Ümumiyyətlə, H.Seyidbəylinin filmlərində o, ictimai, sosial və mənəvi problemlərə mühüm yer verib. Görkəmli sənətkar özü haqda belə deyir: "Kino rejissoru olmaq ən çətin, ən mürəkkəb

və demək olar ki, fövqəladə bir sənətə sahib olmaq deməkdir. Əsl kino rejissorunun insanlara deyiləsi vacib, dərin, ümumbəşəri fikri, sözü, həqiqəti olmalıdır. Kinorejissor öz mövzusunun, öz qəhrəmanlarının fədaisi, vurğunu olmalıdır”.

**II aparıcı:** Bəli, kinorejissor H.Seyidbəylinin “Cazibə qüvvəsi” kinonovellasında, “Sən niyə susursan?”, “Bizim Cəbiş müəllim”, “O qızı tapın”, “Xoşbəxtlik qayğıları” bədii filmlərində günümüzün, zəmanəmizin ən aktual, kəskin problemləri öz bədii həllini tapıb. Bu kino əsərlərində qəhrəmanların mənəviyyatı tədqiq olunaraq bütün çalarları ilə açılıb göstərilib. Təsadüfi deyil ki, “Kimi daha çox sevirik” kinoalmanaxındakı “Cazibə qüvvəsi” novellası 1966-cı ildə Moskvada keçirilən idman filmlərinin I Ümumittifaq kinofestivalında idman mövzusunun poetik təcəssümünə görə diploma layiq görülmüşdü.

**I aparıcı:** H. Seyidbəylinin çəkdiyi filmləri göz önündə canlandırası olsaq görərik ki, o öz qəhrəmanlarına həssaslıqla yanaşır, hətta onlardan ən yaramazının, tənqidçilərin “mənfi” adlandırdıqları surətlərin belə gələcəkdə ölkə və xalq üçün gərəkli olacaqlarına inanır. O deyirdi: “Mənim seçdiyim qəhrəmanlar tipaj deyil. Həmişə haqlarında düşündüyüm, yazdığım, hər gün həyatda təsadüf etdiyim və ekranda görmək istədiyim qəhrəmanlardır. Mən çox istərdim ki, onlar kinoda həyatlarını davam etdirsinlər, kiçiklər boya-başa çatsınlar, böyüklər yaşa dolsunlar - ekranda qocalsınlar”.

**II aparıcı:** Kinorejissorun yazıçı Maqsud İbrahimbəyovun “Müharibənin 1001-ci gecəsi” adlı ssenarisi əsasında çəkdiyi “Bizim Cəbiş müəllim” filmindəki Cəbiş obrazıda uzunömürlü və həmişəyaşar ekran surətlərindəndən biridir. Film 1970-ci ildə Minskdə keçirilən IV Ümumittifaq kinofestivalında nümayiş olunmuş, Cəbiş rolunun ifaçısı Süleyman Ələsgərov festivalın diplomunu almışdı.

**I aparıcı:** Rejissorun digər filmlərinin də maraqlı ekran ömrü olub. Əgər "O qızı tapın" filmində milis işçilərinin fədakar əməyindən, milis orqanlarının bir çox hallarda görünməyən çətin və ağır işlərindən, bu və ya digər cinayət düyününün açılması zamanı baş verən hadisələrdən söhbət gedirsə, "Xoşbəxtlik qayğıları" filmində dramatik münaqişənin əsasını keçmiş adət-ənənələrlə yeni əxlaq qaydaları arasındakı ziddiyyət təşkil edir. Film məhəbbət, xoşbəxtlik haqqında çox vacib çağdaş bir problemin həllinə həsr olunub. Real həyatın xarakterik bir parçasını böyük zövqlə ekrana gətirmək yüksək sənətkarlıq tələb edir. Filmin yaradıcıları bunun öhdəsindən çox məharətlə gəliblər.

**II aparıcı:** Həsən müəllim deyirdi: "Xoşbəxtlik qayğıları" bugünkü gəncləri narahat edən problemlərlə əlaqədar olan rejissorluq düşüncələrimin və axtarışlarımın bir növ davamıdır. "Telefonçu qız", "Möcüzələr adası", "Sən niyə susursan?", "Bizim Cəbiş müəllim" və başqa filmlərimdə də gənc müasirlərimiz qarşısında duran problemlərə toxunmuşam, onların əməyə münasibətlərini, həyatda öz yerlərini axtarıb tapmağa cəhd göstərdiklərini təsvir etməyə çalışmışam. "Sən niyə susursan?" filmi mürəkkəb əxlaqi problem qaldırır. "Xoşbəxtlik qayğıları" filmində isə məni insan səadətini tədqiq etmək məsələsi maraqlandırıb".

Təsadüfi deyil ki, 1977-ci ilin aprelində Riqada keçirilən X Ümumittifaq kinofestivalında "Xoşbəxtlik qayğıları" filminin quruluşçu rejissoru H.Seyidbəyli məişətdə keçmişin qalıqlarına qarşı mövzunun mükəmməl işlənməsi və yeni əxlaq normalarının təbliğinə görə münsiflər heyətinin xüsusi diplomuna layiq görülmüşdü.

Həsən Seyidbəylidən danışarkən onun yaradıcılığının daha bir keyfiyyətini qeyd etməliyik. O, gənc aktyorları arayıb tapmaqdan zövq alır, cəsarətlə filmlərində çəkirdi. Bu gün

kinoda tanınan aktyorlardan bir çoxunu kinematoqraf üçün vaxtilə H.Seyidbəyli kəşf etmişdi. "Telefonçu qız", "Möcüzələr adası", "Bizim Cəbiş müəllim", "O qızı tapın", "Nəsimi", "Xoşbəxtlik qayğıları" və digər filmlərdə çox uğurlu aktyor debütləri olmuşdu. Rasim Balayev, Ramiz Məlikov, Şəfiqə Məmmədova, Xalidə Qasımova (Quliyeva), Zoya Nedbay onu özlərinin müəllimi hesab edirlər.

## Ədəbiyyat siyahısı

### Əsərləri

Cəbhədən cəbhəyə : roman. - Bakı : Hədəf Nəşrləri, 2013. - 346 s.

Xəzər : roman. - Bakı : E.L. Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2010. - 200 s.

### Kiril qrafikası ilə

Bizim Astarada : povest. - Bakı : Uşaqgəncnəşr, 1986. - 252 s.

Cəbhədən cəbhəyə : Povest. Yeniyetmələr üçün - Bakı : Gənclik, 1988. - 269, [3] s.

Çiçək : povest. - Bakı : Gənclik, 1978. - 132 s.

İyirmi gün Amerikada. Yol qeydləri. - Bakı : Gənclik, 1974. - 71 s. : şək.

Kür sahillərində. - Bakı : Uşaqgəncnəşr, 1953. - 75 s.

On beş gün Yaponiyada. - Bakı : Azərnəşr, 1966. - 128, [8] s.

Qaraca toyuğun balaları : hekayə : kiçik yaşlı uşaqlar üçün - Bakı : Uşaqgəncnəşr, 1960. - 14 s. : şək.

Telefonçu qız : povest. - Bakı : Uşaqgəncnəşr, 1960. - 150 s.

Vəfalı it ilə oğru pişiyin nağılı. - Bakı : Uşaqgəncnəşr,1959. -

26 s

**Haqqında**

**Kitab**

**Babayev B. M.** Həsən Seyidbəylinin bədii nəsri. - Bakı : E.L. Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2010. - 152 s.

**Kitablarda**

**Dadaşaov A.** İmran Qasımov və Həsən Seyidbəylinin ssenariləri // Ssenari yaradıcılığı. – Bakı : 2001. – S. 81-95.

**Kazımzadə A**. Həsən Seyidbəyli // Azərbaycan kinematoqrafçıları : portretlər. – Bakı : Mütərcim, 2002. – 127-137.

**Qaraqızı U.** "Bizim Cəbiş müəllim" // Azərbaycan filmlərinin yaranma tarixindən. I kitab. – Bakı : E.L. NPŞ MMC, 2006. – S.96-104. – Filmin rejissoru H.Seyidbəylidir.

**Qaraqızı U**. "Babək" // Azərbaycan filmlərinin yaranma tarixindən. I kitab. – Bakı : E.L. NPŞ MMC, 2006. – S. 105-115. – Filmin rejissoru H.Seyidbəylidir.

**Qaraqızı U**. Qızmar günəş altında // Azərbaycan filmlərinin yaranma tarixindən. I kitab. – Bakı : E.L. NPŞ MMC, 2006. – S.322-330. – Filmin ssenari müəllifi H.Seyidbəylidir.

**Qaraqızı U.** "Nəsimi" // Azərbaycan filmlərinin yaranma tarixindən. I kitab. – Bakı : E.L. NPŞ MMC, 2006. – S. 414-423. – Filmin rejissoru H.Seyidbəylidir.

**Qaraqızı U.** "Uzaq sahillərdə" // Azərbaycan filmlərinin yaranma tarixindən. I kitab. – Bakı : E.L. NPŞ MMC, 2006. – S. 589-599. – Filmin ssenari müəllifləri İ. Qasımov və H.Seyidbəylidir..

**Dövri mətbuatda**

**Babayev B.** Həsən Seyidbəyli yaradıcılığının nəsr təkamülü: : "Cəbhədən-cəbhəyə // Ədəbiyyat qəzeti. - 2018. - 29 dekabr. - № 51/52. - S. 25.

**Kazımzadə A.** Yeri həmişə görünən adam : kino tarixində imzasını qoymuş Həsən Seyidbəylinin də reallaşmayan arzusu olub // Kaspi. - 2016. - 28 yanvar. - № 16. - S. 15.

**Müşfiq Ş.** Həyatı yazan, yazdığını ekranlaşdıran sənətkar - Həsən Seyidbəyli // 525-ci qəzet. - 2018. - 22 dekabr. - № 228. - S. 16.

**Şair ömrünün ekran** təcəssümü : İmadəddin Nəsimi 650 // Mədəniyyət. - 2019. - № 48 (Xüsusi buraxılış). - S. 41.

# Həyatı yazan yazdığını ekranlaşdıran yazıçı – Həsən Seyidbəyli

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 28
Çapa imzalanmışdır: 17.06.2020
Tirajı:100
Pulsuz